AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI

18 2 2009

AZƏRBAYCAN RESPUBLİKASININ
STANDARTLAŞDIRMA, METROLOGİYA
VƏ PATENT ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

Standartlar fondu
NƏZARƏT NÜSXƏSİ

# TÜTÜN MƏMULATLARI

## Qablaşdırma və markalanma

AZS 335 - 2009

**Rəsmi nəşr**

Azərbaycan Standartlaşdırma və
Sertifikatlaşdırma İnstitutu
«AzSTANDARTİNFORM» MMC
Təqdim edilib: İctimai Səhiyyə və
İslahatlar Mərkəzi
« 20 » Oktyabr 2014 il.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi

Bakı

## MÜQƏDDİMƏ

1. «Yeyinti və kənd təsərrüfatı məhsullarının standartlaşdırılması» üzrə Texniki Komitə TK - 02 tərəfindən İŞLƏNİB VƏ TƏQDİM EDİLİB

2. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 29.04.2009-cu il tarixli 047 saylı ƏMRİ ilə TƏSDİQ EDİLİB və QÜVVƏYƏ MİNİB

3. İLK DƏFƏ TƏTBİQ EDİLİR

4. İlk yoxlama müddəti 2015-ci il, dövri yoxlama 5 ildir.

Bu standart Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin icazəsi olmadan tam və ya hissə-hissə yenidən çap oluna, çoxaldıla və yayıla bilməz

Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu «AzSTANDARTİNFORM» MMC

## MÜNDƏRİCAT

1. Tətbiq sahəsi ....1
2. Normativ istinadlar ....1
3. Təriflər ....3
4. Qablaşdırma....5
4.1. İstehlak tarasına qablaşdırma ....5
4.2. Nəqliyyat tarasına qablaşdırma....6
5. Markalanma ....7
5.1. İstehlak tarasının markalanması ....7
5.2. Nəqliyyat tarasının markalanması....10
6. Əlavə A....11

Azərbaycan Standartlaşdırma və
Sertifikatlaşdırma İnstitutu
«AzSTANDARTİNFORM» MMC

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI

**TÜTÜN MƏMULATLARI**
Qablaşdırma və markalanma

**ИЗДЕЛИЯ ТАБАЧНЫЕ**
Упаковка и маркировка

**TOBACCO PRODUCTS**
Packing and marking

**AZS 335 - 2009**

Tətbiq edilmə tarixi 01.05.2011

## 1. TƏTBİQ SAHƏSİ

Bu standart Azərbaycan Respublikasının ərazisində istehsal edilən, idxal edilən və satılan tütün məmulatlarına şamil edilir və bu məmulatların qablaşdırılması və markalanmasına olan tələbləri müəyyən edir.

Bu standart tütün məmulatlarının istehsalında, topdan və pərakəndə satışında, saxlanılması və sertifikatlaşdırılmasında istifadə edilmək üçün nəzərdə tutulmuşdur.

«Tütün və tütün məmulatları haqqında», «İstehlakçıların hüquqlarının qorunması haqqında» və «Standartlaşdırma haqqında» Azərbaycan Respublikası Qanunlarına müvafiq olaraq bu standartın tələbləri məcburidir.

## 2. NORMATİV İSTİNADLAR

Bu standartda aşağıdakı normativ sənədlərə istinad edilmişdir:

ГОСТ 745-79 Фольга алюминиевая для упаковки. Технические условия

Rəsmi nəşr

Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi
NORMATİV SƏNƏD
QEYDİYYATA ALINIB № 335
«29» 04 2009 il
Sədr

Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu
«AzSTANDARTİNFORM» MMC
NORMATİV SƏNƏDİN RƏSMİ NÜSXƏSİ

ГОСТ 3916.1-96 Фанера общего назначения с наружными слоями из шпона лиственных пород. Технические условия

ГОСТ 3916.2-96 Фанера общего назначения с наружными слоями из шпона хвойных пород. Технические условия

ГОСТ 6290-74 Бумага пачечная двухслойная для упаковывания папирос и сигарет. Технические условия

ГОСТ 7438-73 Бумага курительная. Технические условия

ГОСТ 7625-86 Бумага этикеточная. Технические условия

ГОСТ 7933-89 Картон для потребительской тары. Общие технические условия

ГОСТ 8273-75 Бумага оберточная. Технические условия

ГОСТ 10131-93 Ящики из древесины и древесных материалов для продукции пищевых отраслей промышленности, сельского хозяйства и спичек. Технические условия

ГОСТ 10354-82 Пленка полиэтиленовая. Технические условия

ГОСТ 13511-91 Ящики из гофрированного картона для пищевых продуктов, спичек, табака и моющих средств. Технические условия

ГОСТ 14192-96 Маркировка грузов

ГОСТ 18510-87 Бумага писчая. Технические условия

ГОСТ 30570-98 Сигареты. Определение содержания никотина в конденсате дыма. Метод газовой хроматографии

ГОСТ 30571-98 Сигареты. Определение содержания влажного и несодержащего никотин сухого конденсата (смолы) в дыме сигарет с помощью лабораторной курительной машины



Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu
«AzSTANDARTİNFORM» MMC
NORMATİV SƏNƏDİN RƏSMİ NÜSXƏSİ

## 3. TƏRİFLƏR

Bu standartda müvafiq təriflər ilə aşağıdakı terminlər tətbiq edilir:

**tütün məmulatı:** souslar və aromatizatorlar əlavə edilməklə və ya edilməməklə, tamamilə və ya qismən tütündən və/və ya maxorkadan hazırlanan, istehlak tarasına qablaşdırılan, çəkilmək (çəkilən məmulat), çeynəmək, iyləmək və ya sormaq üçün (çəkilməyən məmulat) nəzərdə tutulan məmulat;

**tütün məmulatının növü:** konstruktiv əlamətlərinə, istehlak xassələrinə və istifadə üsullarına görə oxşar tütün məmulatlarının məcmusu (siqaretlər, siqarlar, sorulan tütün və s.);

**tütün məmulatının markası:** eyni növdən olan digər məhsuldan bir və ya bir neçə əlamətləri ilə fərqlənən müəyyən növ məhsulun adı;

**çəkilən məmulat:** çəkilmək üçün nəzərdə tutulan, istehlak tarasına qablaşdırılmış tütün məmulatı;

**siqaret:** siqaret kağızına bükülmüş doğranmış tütündən (çəkilən hissə) ibarət filtrli/filtrləyici müştüklü və ya filtrsiz tütün məmulatı növü;

**siqar:** siqar tütünündən və ya digər tütün xammalından hazırlanan, üç qata: bütöv, didilmiş və ya doğranmış siqar tütünündən yaxud digər tütün xammalından ibarət içə, siqar yarpağından və ya bərpa olunmuş tütündən ibarət alt və üst sarğı qatlarına malik tütün məmulatı növü. Siqara sous və aromatizator əlavə edilə və müştük birləşdirilə bilər.

**siqarilla:** kiçik ölçüləri ilə fərqlənən, alt sarğı qatsız hazırlana bilən və filtrləyici müştüyə malik ola bilən siqar;

**sorulan tütün (snyus):** duz və ya dadverici əlavələr edilməklə tamamilə və ya qismən təmizlənmiş tütün tozundan hazırlanan, sorma üçün nəzərdə tutulan, çəkilməyən tütün məmulatı növü;

Azərbaycan Standartlaşdırma və
Sertifikatlaşdırma İnstitutu
«AzSTANDARTİNFORM» MMC
NORMATİV SƏNƏDİN RƏSMİ NÜSXƏSİ

**iylənilən tütün:** sous və aromatizator əlavə edilmiş narın tütün tozundan və digər komponentlərdən hazırlanan, iyləmək üçün nəzərdə tutulan, çəkilməyən tütün məmulatı növü;

**istehsalçı:** istehlakçılara satmaq üçün tütün məmulatları istehsal edən istənilən mülkiyyət formasında təşkilat, həmçinin fərdi sahibkar;

**istehlakçı:** tütün məmulatlarını gəlir götürməklə əlaqəsi olmadan, yalnız şəxsi ehtiyacı üçün sifariş etmək və ya almaq niyyətində olan, yaxud sifariş edən, alan və ya istifadə edən fiziki şəxs;

**əmtəə nişanı:** bir hüquqi və ya fiziki şəxs tərəfindən istehsal edilən eyni markalı tütün məmulatlarını digər hüquqi və ya fiziki şəxs tərəfindən istehsal edilən məmulatlardan ayırmağa imkan verən qrafik işarə (və ya işarələrin birləşməsi), həmçinin Azərbacan Respublikasının qanunvericiliyinə uyğun olaraq əmtəə nişanı kimi qeydiyyatdan keçirilə bilən başqa işarələr;

**lisenziyaçı:** əmtəə nişanının sahibi;

**nikotin:** tütün yarpağında və tüstüsündə mövcud olan, alkoloidlər qrupuna aid maddə;

**tütün qətranı:** susuz, nikotinsiz tüstü kondensatı;

**tütün tüstüsü:** tütün məmulatlarının yanması zamanı alınan və onların çəkilməsi nəticəsində havaya ayrılan məhsullar;

**karbon monooksidi**: tütünün və tütün məmulatlarının digər üzvi komponentlərinin yarımçıq yanması nəticəsində tüstünün qaz fazasında mövcud olan komponent;

**fərdi istehlak tarası:** içərisində istehlakçıya tütün məmulatları satılan minimal qablaşdırma vahidi;

**qrup istehlak tarası:** nəqliyyat tarası tətbiq etmədən, bir neçə fərdi istehlak tarası vahidindən tərtib edilmiş, içərisində istehlakçıya tütün məmulatları satılan qablaşdırma;



Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu
«AzSTANDARTİNFORM» MMC

**istehlak tarası:** fərdi istehlak tarası və/ və ya qrup istehlak tarası;

**nəqliyyat tarası:** fərdi və ya qrup istehlak tarası vahidlərindən tərtib edilmiş, tütün məmulatlarının daşınması üçün nəzərdə tutulmuş qablaşdırma;

**tütün məmulatlarının istehlak tarasının növü:** müxtəlif materiallardan hazırlanan müxtəlif konstruksiyalı qablaşdırma (paçka, qutu, boks, blok və s.).

**paçka:** kartondan, paçka və ya etiket kağızından hazırlanan və içərisində müəyyən miqdarda tütün məmulatı olan fərdi istehlak tarası vahidi;

**blok:** kağıza, polimer plyonkaya bükülmüş və ya üzərinə lent çəkilmiş müəyyən miqdarda paçkalardan ibarət qrup istehlak tarası;

**boks:** qutu kartonundan və ya etiket kağızından hazırlanan və içərisində müəyyən miqdarda paçka olan qrup istehlak tarası;

**qutu:** karton, tənəkə, plastmas və ya digər materiallardan hazırlanan istehlak tarası növü;

**tütün məmulatları üçün etiket:** fərdi və qrup istehlak tarasının hazırlanması üçün istifadə edilən bədii tərtibatlı ilkin material (ülgü);

**kəsmə lenti:** istehlak tarasının plyonka örtüyünün açılmasına xidmət edən lent;

**istehlak tarasının markalanması:** normativ sənədin tələblərinə uyğun olaraq bilavasitə istehlak tarasının və ya taranın içərisinə qoyulan vərəqin üzərində göstərilən, istehlakçı üçün informasiya.

## 4. QABLAŞDIRMA

4.1. İstehlak tarasına qablaşdırma

4.1.1. Tütün məmulatları fərdi istehlak tarasına, fərdi istehlak tarası isə - qrup istehlak tarasına qablaşdırılır.

4.1.2. Tütün məmulatlarının qablaşdırılması üçün tara təmiz, bütöv və qüvvədə olan normativ sənədin tələblərinə uyğun olmalıdır.

Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu «AzSTANDARTİNFORM» MMC

4.1.3. Tütün məmulatlarının qablaşdırılması üçün aşağıdakı qablaşdırma materiallarından istifadə edilir:

ГОСТ 7933 üzrə qutu kartonundan hazırlanan etiketlər;

ГОСТ 7625 üzrə etiket kağızından hazırlanan etiketlər;

ГОСТ 6290 üzrə ikiqatlı paçka kağızından hazırlanan etiketlər;

normativ və ya texniki sənəd üzrə birqatlı paçka kağızından hazırlanan etiketlər;

ГОСТ 3916.1 və ГОСТ 3916.2 üzrə fanerdən hazırlanan qutular;

ГОСТ 745 üzrə alüminium folqa;

ГОСТ 18510 üzrə yazı kağızı;

ГОСТ 7438 üzrə papiros kağızı;

ГОСТ 10354 üzrə polietilen plyonka;

normativ və ya texniki sənəd üzrə polimer plyonka;

ГОСТ 8273 üzrə bükmə kağızı;

normativ və ya texniki sənəd üzrə kəsmə lenti.

Azərbacan Respublikası Səhiyyə Nazirliyi tərəfindən istifadəsinə icazə verilən digər qablaşdırma materiallarından, o cümlədən xaricdən alının materiallardan istifadə edilə bilər.

4.2. N ə q l i y y a t t a r a s ı n a q a b l a ş d ı r m a

4.2.1. İstehlak tarasındakı tütün məmulatları nəqliyyat tarasına - büzməli kartondan hazırlanmış ГОСТ 13511 üzrə yeşiklərə, ГОСТ 10131 üzrə faner yeşiklərə və yaxud digər normativ və ya texniki sənədlər üzrə taraya qablaşdırılır.

4.2.2. Tara təmiz, quru, möhkəm olmalı və daşınma və saxlanma zamanı tütün məmulatlarının qorunub saxlanılmasını təmin etməlidir.



Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu «AzSTANDARTİNFORM» MMC

## 5. MARKALANMA

5.1. İstehlak tarasının markalanması

5.1.1. Fərdi istehlak tarasının üzərindəki informasiyada aşağıdakı məlumatlar olmalıdır:

5.1.1.1. Tütün məmulatının növünün adı, məsələn «siqaretlər». Adı tütün məmulatları haqqında başqa inqformasiya ilə birlikdə göstərməyə yol verilir, məsələn «20 ədəd filtrli siqaret».

5.1.1.2. Məmulatın markası və ya əmtəə nişanı (olduqda) - bu marka və ya əmtəə nişanının sahibi olan istehsalçı və ya lisenziyaçının yerləşdiyi ölkələrdə təsbit olunmuş qaydada istehsalçı tərəfindən təsdiq və ya qəbul edilir.

5.1.1.3. İstehsalçının və ya lisenziyaçının (tütün məmulatları lisenziya üzrə hazırlandıqda) adı və hüquqi ünvanı (ölkə daxil edilməklə).

5.1.1.4. Əgər bir təşkilat (şirkət, firma) bu təşkilatın tütün məmulatlarını istehsal edən müəssisələrdə istehsal prosesinə, istifadə edilən xammal və materiallara, məhsulun keyfiyyətinə nəzarət edirsə, istehlak tarasının üzərində istehsalçının və ya lisenziyaçının adı və ünvanı əvəzinə aşağıdakı məlumatlar yazılmaqla bu təşkilatın (şirkətin, firmanın) adını göstərməyə yol verilir:

«_______________________________________ nəzarəti ilə istehsal
(ölkə daxil edilməklə təşkilatın adı və hüquqi ünvanı)
edilmişdir».

5.1.1.5. Azərbaycan Respublikasında satılmaq üçün nəzərdə tutulan tütün məmulatlarının hər bir fərdi istehlak tarası vahidinin üzərində həmçinin istehlakçıların iddialarını qəbul etmək üçün istehsalçı tərəfindən səlahiyyət verilmiş Azərbaycandakı təşkilatın adı və hüquqi ünvanı göstərilir. Bu informasiyanı paçkanın içəri tərəfində, istehlakçının oxuya bilməsi üçün əlverişli yerdə göstərməyə yol verilir.

Azərbaycan Standartlaşdırma və
Sertifikatlaşdırma İnstitutu
«AzSTANDARTINFORM» MMC

5.1.1.6. Çəkilən məmulatlar üçün filtrləyici müştüyün (filtrin) mövcudluğu.

5.1.1.7. Mentolla hazırlanan məmulat üçün «mentol ilə» yazısı.

5.1.1.8. Məmulatların miqdarı (ədəd).

5.1.1.9. Siqaret çəkməyin ziyanı haqqında, çəkilən tütün məmulatlarının fərdi istehlak tarasının hər bir böyük tərəfinin sahəsinin 30%-ini tutan, «Siqaret çəkmək Sizin sağlamlığınıza ziyan vurur» xəbərdarlıq yazısı.

5.1.1.10. Çəkilən tütün məmulatlarının tüstüsünün kondensatında olan qətranın, nikotinin və karbon monooksidinin miqdarı (1 siqaretdə milliqramla) haqqında, fərdi istehlak tarasının yan tərəflərindən birinin səthinin 10%-ini tutan yazı.

Qətranın, nikotinin və karbon monooksidinin miqdarı əlavə A-da göstərilən parametrlərdən yüksək olmamalıdır.

5.1.1.11. 18 yaşına çatmamış şəxslərə tütün məmulatlarının satılmasının qadağan olması haqqında yazı.

5.1.1.12. Tütün məmulatlarının sertifikatlaşdırılması haqqında məlumat;

5.1.1.13. Azərbacan Respublikası ərazisində istehsal olunmuş məmulat üçün normativ sənədin işarəsi.

5.1.2. Qrup istehlak tarasının üzərindəki informasiyada aşağıdakı məlumatlar olmalıdır:

istehsalçının və ya lisenziyaçının adı və hüquqi ünvanı, yaxud 5.1.1.4 bəndi üzrə informasiya;

tütün məmulatının növünün adı və markası;

qablaşdırmadakı fərdi istehlak tarası vahidlərinin miqdarı və hər taradakı məmulatların miqdarı;

siqaret çəkməyin ziyanı haqqında, çəkilən tütün məmulatlarının qrup istehlak tarasının hər bir böyük tərəfinin sahəsinin 30%-ini tutan, «Siqaret çəkmək Sizin sağlamlığınıza ziyan vurur» xəbərdarlıq yazısı;



Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu
«AzSTANDARTİNFORM» MMC

Azərbacan Respublikası ərazisində istehsal olunmuş məmulat üçün normativ sənədin işarəsi.

Qrup istehlak tarasının (blokun) üzərindəki şəffaf qablaşdırma materialı qablaşdırılmış fərdi istehlak tarası vahidlərinin (paçkanın) üstündəki yazının aydın oxunmasına mane olmursa, blokun markalanması tələb olunmur.

5.1.3. *İnformasiyanın yerləşdirilməsi*

5.1.3.1. İnformasiya bilavasitə istelak tarası vahidinin (paçka, qutu, boks) üzərində yerləşdirilir.

5.1.3.2. Siqaret çəkməyin ziyanı haqqında xəbərdarlıq yazısı fərdi istehlak tarasının böyük tərəflərinin aşağı hissəsində, taranın aşağı qırağına mümkün qədər yaxın yerləşdirilməlidir.

Xəbərdarlıq yazısının sərhədi ilə paçkanın aşağı qırağı və ya qatlanan yeri arasındakı yol verilən kənara çıxma 1 mm-dək olmalıdır. Bu yol verilən kənara çıxma xəbərdarlıq yazısı üçün ayrılmış 30%-lik sahəyə daxil edilmir.

5.1.2.3. Siqaret çəkməyin ziyanı haqqında xəbərdarlığın mətni ağ fonda, qalınlığı 1 mm olan qara rəngli çərçivənin içərisində qalın, qara Helvetica şrifti ilə çap olunmalıdır.

Şriftin ölçüsü xəbərdarlıq yazısının müəyyən edilmiş çərçivədə yerləşdirilməsinin mümkünlüyü nəzərə alınmaqla maksimal olmalı, yazı aydın və asan oxunan olmalıdır.

5.1.4. *İnformasiyanın göstərilməsi üsulu*

5.1.4.1. İstehlak tarasının üzərindəki informasiya, ixrac üçün nəzərdə tutulan tütün məmulatları istisna olmaqla Azərbaycan Respublikasının dövlət dilində olmalıdır. İnformasiya xarici dillərdə təkrarlana bilər.

5.1.4.2. İnformasiya aydın və asan oxunan olmalıdır və istənilən üsulla həkk oluna bilər.

5.1.4.3. İnformasiyanın həkk olunması üçün vasitələr tütün məmulatlarının saxlanması, daşınması və istehlakçıya satılması zaman məlumatların qorunub

Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu

saxlanmasını təmin etməlidir.

Azərbacan Respublikası Səhiyyə Nazirliyi tərəfindən tütün məmulatları ilə kontaktına icazə verilən vasitələrdən istifadə edilməlidir.

5.1.4.4. İnformasiya birmənalı başa düşülən və dürüst olmalıdır ki, istehlakçı aldadılmasın və tütün məmulatlarının istehsalçısı, növü, markası və tütün məmulatlarını birbaşa və ya dolayısı ilə xarkterizə edən digər məlumatlar haqqında yanlış fikirdə olmasın və tütün məmulatını adına və xarici görünüşünə görə ona yaxın digər məmulat hesab edə bilməsin.

5.1.4.5. Çəkilən tütün məmulatlarının markalanması müəyyən tütün məmulatının digərlərindən daha az ziyanlı olduğu haqqında yanlış təsəvvür yaratmamalı, yəni markalanmada «qətranların miqdarı aşağıdır», «yüngül», «çox yüngül» və ya «yumşaq» və s. terminlər olmamalıdır.

5.2. Nəqliyyat tarasının markalanması

5.2.1. Tütün məmulatları qablaşdırılmış yeşiyin üzərinə aşağıdakı məlumatlar olan markalanma həkk olunmalıdır:

istehsalçının və ya lisenziyaçının adı və hüquqi ünvanı, yaxud 5.1.1.4 bəndi üzrə informasiya;

tütün məmulatının növünün adı və markası;

yeşikdəki istehlak tarası vahidlərinin miqdarı və hər istehlak tarasındakı məmulatların miqdarı;

tütün məmulatının hazırlandığı ay və il;

məmulat üçün qüvvədə olan normativ sənədin işarəsi.

5.2.2. ГОСТ 14192 üzrə «Rütubətdən qorumalı» və «İstidən qorumalı» manipulyasiya nişanları həkk oluna bilər.

5.2.3. Yeşiyin üzərində məhsulu xarakterizə edən əlavə informasiya göstərilə bilər.



Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu «AzSTANDARTİNFORM» MMC

# ƏLAVƏ A

(məcburi)

## SİQARET TÜSTÜSÜ KONDENSATINDA QƏTRAN, NİKOTİN VƏ KARBON MONOOKSİDİN MİQDARI

| Göstərici | Yol verilən hədd, (bir tütün məmulatında, mq) | Sınaq üsulu |
|---|---|---|
| Qətran | 10,0 | ГОСТ 30571 üzrə |
| Nikotin | 1,0 | ГОСТ 30570 üzrə |
| Karbon monooksidi | 10,0 | təsdiq edilmiş metodika üzrə |

Azərbaycan Standartlaşdırma və
Sertifikatlaşdırma İnstitutu
«AzSTANDARTİNFORM» MMC

ОКП 91 9300 МКС 65.160 SMST 16.00 H00

Əsas sözlər: tütün məmulatları, qabalaşdırma, markalanma, təriflər, fərdi istehlak tarası, qrup istehlak tarası, nəqliyyat tarası, qablaşdırma materialları, istehlak tarasının üzərində informasiya, informasiyanın yerləşdirilməsi, siqaret çəkməyin ziyanı haqqında xəbərdarlıq yazısı



Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu
«AzSTANDARTİNFORM» MMC
NORMATİV SƏNƏDİN RƏSMİ NÜSXƏSİ

«Yeyinti və kənd təsərrüfatı məhsullarının standartlaşdırılması» üzrə Texniki Komitənin (TK – 02) sədri, Azərbaycan Standartlar İnstitutunun direktoru — R.C.İsmayılov

(TK – 02) üzvü, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş məsləhətçisi — N.S.Abdullayev

«Atlantika» Xüsusi Elmi-İstehsalat Müəssisəsinin direktoru — V.N.Əmrahov

Azərbaycan Standartlar İnstitutunun standartlaşdırma və sertifikatlaşdırma şöbəsinin baş mütəxəssisi — Ə.M.Zeynalzadə

RAZILAŞDIRILIB

Azərbaycan Respublikası Baş Dövlət sanitariya həkiminin müavini

A.M.Əlibəyov

Məktub №04-22/6-2997

26. 11.2008-ci il

Azərbaycan Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu
«AzSTANDARTİNFORM» MMC
NORMATİV SƏNƏDİN RƏSMİ NÜSXƏSİ